# Cənubi Qafqazda söz sahibi Azərbaycandır

## Prezident İlham Əliyevə edilən zənglər bunun təsdiqidir



**"Aprelin 3-də ABŞ-nin Dövlət katibi E.Blinken üçtərəfli görüş öncəsi Prezident İlham Əliyevlə telefon danışığı zamanı Azərbaycanın bu görüşdən narahatlığından xəbərdar olduğunu diqqətə çatdırıb. ABŞ rəsmisi görüşün Azərbaycana qarşı olmadığını vurğulayıb".**

Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Anar İsgəndərov deyib. Deputat bildirib ki, E.Blinkenin görüş öncəsi Prezident İlham Əliyevlə əlaqə saxlaması dövlət başçısının yüksək nüfuzunun göstəricisidir. Bu onu göstərir ki, ABŞ Azərbaycanın narahatlığını nəzərə alır.

Aprelin 5-də baş tutan ABŞ-Aİ-Ermənistan arasında görüşə toxunan A.İsgəndərov qeyd edib ki, əslində, bu danışıqlarda Azərbaycan tərəfinin iştirak etməməsi Ermənistana heç nə vermir. Bu gün Cənubi Qazqazda söz sahibi Azərbaycandır, Ermənistan deyil. Bir tərəfdən Rusiya, digər tərəfdən Avropa və ayrı-ayrı təşkilatlar Ermənistanla münasibətləri hansı formada qururlarsa - qursunlar, söz sahibi yenə Azərbaycandır. Azərbaycan Ermənistanın ölkəmizə qarşı uzun illər boyu həyata keçirdiyi işğalçı siyasəti ifşa edən, erməni ordusunu darmadağın edən dövlətdir.

Deputat vurğulayıb ki, Hayastanın ölkəmiz əleyhinə yürütdüyü siyasət o qədər ağrılı, tarixi torpaqlarımıza qarşı həyata keçirilən ekoloji fəlakətin həcmi o qədər böyük olub ki, bunlar heç vaxt yaddan çıxa bilməz: "Üstəlik, Qərb və ABŞ-nin işğalçı Ermənistana qarşı "səmimi" münasibəti onların heç birinə nüfuz gətirmir. Belə bir dövləti müdafiə etmək, qəbuledilməzdir. Uzun müddət Azərbaycan torpaqlarını işğal altında saxlayan, əhalisini qaçqın və köçkün həyatı yaşamağa məcbur edən Ermənistan necə hörmət sahibi ola bilər? ABŞ Dövlət katibi Prezident İlham Əliyevlə danışığında təkidlə qeyd etdi ki, bu görüşün Azərbaycana heç bir ziyanı yoxdur".

A.İsgəndərov qeyd edib ki, Azərbaycan qalib, müstəqil siyasət yürüdən dövlətdir, odur ki, ötən gün keçirilən görüşün ölkəmizə qarşı heç bir təhdidi ola bilməzdi: "Ermənistan onun, bunun qarşısında əyilirsə, göz yaşı tökürsə və onun göz yaşlarına aldanıb, yazığı gəlib müdafiə edildiyi halda Azərbaycana Qərb yalnız sözdə dəstək olur. Azərbaycanın qətiyyətli siyasəti xalqın arzu və istəyidir. Xalqımız fəxr edir ki, onun cənab İlham Əliyev kimi qlobal lideri var. Prezident İlham Əliyevin siyasəti uğurludur və atdığı addımlar Azərbaycanı xoşbəxt gələcəyə aparır. ABŞ və Qərbin nüfuzlu təsisatları Ermənistanla əməkdaşlıq etmək istəyirlərsə, etsinlər. Amma Azərbaycana qarşı hər hansı məkrli plan ola bilməz, əgər olarsa, dövlətimiz buna adekvat cavab verəcək".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2024.- 6 aprel, № 71.- S.7.